https://doi.org/10.30546/114578.2026.3010.123

# I BAKI TÜRKOLOJİ QURULTAYI – "DİVANİ-LÜĞƏT İT-TÜRKDƏN" BAŞLAYAN TÜRKOLOGİYA ELMİNİN ÇAĞDAŞ DÖVRÜ

**Günay Alıyeva**
*baş müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https:// ORCID.org/0000-0001-5780-039X*
*aliyevagunay79@yahoo.com*

*"Türk dünyası bizim mənəvi dayağımızdır, biz bu birliyin güclənməsi üçün bütün istiqamətlərdə fəaliyyət göstəririk*".
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

**Xülasə**

Türk xalqlarının dilçilik tarixində I Bakı Türkoloji Qurultayı ədəbi dil, əlifba, terminologiya, dilin tədrisi imkanları, həmçinin ədəbiyyat, mədəniyyət və türk xalqlarının tarixi istiqamətində müstəsna əhəmiyyə malikdir. Türkdilli xalqlarla yanaşı, Avropa dövlətlərinin də iştirak etdiyi qurultay İsmayıl bəy Qaspiralı və türkoloq V.Radlovun şərəfinə keçirilmiş, türk dilləri, etnogenezisi, ortaq əlifba və digər mövzularda bir-birindən maraqlı 38 məruzə dinlənilmişdir. F.Köprülüzadə, A.Krımski, N.Poppe, L.Ligetin, N.Aşmarin kimi şərqşünas alimlərin qurultayda iştirakı onun nüfuzunu daha da artırmışdı.

Azərbaycanlı dilçilərdən H.Zeynallının "Türk dillərində elmi teminologiya sistemi haqqında", F.Ağazadənin "Türk dillərində düzgün yazı", C.Məmmədzadənin "Türk xalqlarının əlifba sistemləri haqqında" məruzələri qurultayın gündəliyində olan əlifba, orfoqrafiya və terminologiya məsələlərinin həlli istiqamətində atılmış qətiyyətli addımlar idi.

**Açar sözlər:** türkologiya, türk dilləri, çağdaş dövr, əlifba, terminologiya.

# THE FIRST BAKU TURKOLOGICAL CONGRESS – THE CONTEMPORARY PERIOD OF THE SCIENCE OF TURKOLOGY BEGINNING WITH "DĪVĀNİ- LUĠĀT AT-TURK"

**Gunay Alıyeva**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

The First Baku Turkological Congress holds exceptional significance in the history of linguistics of the Turkic peoples, particularly in the fields of

literary language, alphabet, terminology, language teaching methodologies, as well as literature, culture, and the history of the Turkic world. In addition to representatives of Turkic-speaking nations, the Congress was attended by scholars from various European countries and was held in honor of Ismail Bey Gasprinski and the renowned turkologist V.Radlov. During the Congress, thirty-eight scholarly papers were presented on a wide range of topics, including Turkic languages, ethnogenesis, the common alphabet, and related issues. The participation of prominent orientalist scholars such as F.Kopruluzade, A.Krymsky, N.Poppe, L.Ligeti, and N.Ashmarin further enhanced the academic prestige of the Congress.

Among Azerbaijani linguists, the presentations delivered by H.Zeynalli, *"On the System of Scientific Terminology in Turkic Languages,"* F.Aghazade, *"Correct Orthography in Turkic Languages,"* and J.Mammadzade, *"On the Alphabet Systems of Turkic Peoples"* represented decisive steps toward addressing the pressing issues of alphabet reform, orthography, and terminology that were central to the Congress agenda.

**Key words:** turkology, turkic languages, contemporary period, alphabet, terminology.

## ПЕРВЫЙ БАКИНСКИЙ ТЮРКОЛОГИЧЕСКИЙ СЪЕЗД – СОВРЕМЕННЫЙ ПЕРИОД НАУКИ ТЮРКОЛОГИИ, НАЧИНАЮЩЕЙ С «ДИВАНИ-ЛУГАТ ИТ-ТУРК»

**Гюнай Алыева**
*Азербайджанский государственный педагогический университет*

### Резюме

В лингвистической истории тюркских народов Первый Бакинский тюркологический конгресс имеет исключительное значение с точки зрения литературного языка, алфавита, терминологии, возможностей преподавания языка, а также литературы, культуры и истории тюркских народов. Конгресс, в котором приняли участие представители европейских государств и тюркоязычных народов, был проведен в честь Исмаила бея Гаспиралы и тюрколога В.Радлова, и на нем было заслушано 38 интересных докладов по тюркским языкам, этногенезу, общему алфавиту и другим темам. Участие в конгрессе таких востоковедов, как Ф.Кёпрюлюзаде, А.Крымский, Н.Поппе, Л.Лигетин, Н.Ашмарин, еще больше повысило его престиж.

Доклады азербайджанских лингвистов Г.Зейналлы «О системе научной терминологии в тюркских языках», Ф.Агазаде «Правильное письмо в тюркских языках», Дж.Маммадзаде «Об алфавитных системах тюркских народов» стали решающими шагами на пути решения вопросов алфавита, орфографии и терминологии, стоявших на повестке дня конгресса.

**Ключевые слова:** тюркология, тюркские языки, современный период, алфавит, терминология.

**Giriş/Introduction**

Türkologiya elmi türk xalqlarının dili, tarixi, mədəniyyəti və etnik yaddaşının elmi əsaslarla öyrənilməsini hədəfləyən çoxşaxəli və dinamik bir tədqiqat sahəsi kimi minilliklər boyu formalaşmış zəngin intellektual ənənəyə malikdir. Bu elmi ənənənin başlanğıc nöqtəsi, heç şübhəsiz, XI əsrdə Mahmud Kaşğari tərəfindən qələmə alınmış "Divani-lüğət-it türk" əsəridir. Sözügedən abidə yalnız ilk sistemli türk dili lüğəti deyil, eyni zamanda türk dünyasının etnolinqvistik xəritəsini, mədəni kodlarını və tarixi-coğrafi reallıqlarını özündə ehtiva edən fundamental elmi mənbə kimi türkologiyanın ideya-metodoloji təməlini formalaşdırmışdır. "Divani-lüğət it-türk"də tətbiq olunan müşahidə, müqayisə və təsnifat prinsipləri sonrakı dövrlərdə türkologiyanın əsas metodoloji dayaqlarına çevrilmiş, türk dillərinin qarşılıqlı əlaqələrinin və tarixi inkişafının öyrənilməsində mühüm rol oynamışdır. Mahmud Kaşğarinin dili yalnız kommunikasiya vasitəsi kimi deyil, həm də etnik kimliyin, tarixi yaddaşın və mədəni irsin daşıyıcısı kimi təqdim etməsi türkologiyanın klassik mərhələsində formalaşan elmi düşüncə tərzinin əsas xüsusiyyətlərindən biri olmuşdur.

XX əsrin əvvəllərində türkologiya elmi yeni tarixi-siyasi və intellektual şəraitdə keyfiyyətcə fərqli bir mərhələyə qədəm qoymuşdur. Bu mərhələnin ən mühüm hadisələrindən biri 1926-cı ildə keçirilmiş I Bakı Türkoloji Qurultayı olmuşdur. Qurultay türk xalqlarının dil, əlifba, terminologiya və elmi metodologiya məsələlərinin müzakirə edildiyi beynəlxalq elmi platforma kimi türkologiyanın institusionallaşmasında və çağdaş elmi istiqamətlərinin müəyyənləşdirilməsində həlledici rol oynamışdır.

I Bakı Türkoloji Qurultayı klassik türkologiyanın ideya irsini qorumaqla yanaşı, onu müasir elmi tələblər kontekstində yenidən dəyərləndirmiş, türkologiyanı fərdi tədqiqatlardan sistemli və koordinasiyalı elmi fəaliyyət mərhələsinə çıxarmışdır. Bu baxımdan qurultay "Divani-lüğət it-türk"lə başlanan elmi ənənənin XX əsrdə yeni məzmun və metodlarla davam etdirildiyi

mühüm tarixi dönüş nöqtəsi kimi qiymətləndirilə bilər. "*Bu qurultay təkcə Azərbaycan üçün deyil, bütün türk xalqları üçün, hətta türk olmayan xalqlar üçün də böyük rol oynadı. Belə ki, bir sıra türk xalları, türklər, özbəklər, qazaxlar çoxdan yeni əlifba haqqında düşünsələr də, bu ideyanı reallaşdıra bilmirdilər. ...Qurultayın ən böyük cəhətlərindən biri də türk xalqlarının özünü tanıması,öz türklüyü ilə fəxr etməsi oldu"* [Babayev, 2016:15-16].

**I Bakı Türkoloji Qurultayı – elmi-siyasi çağırış kimi.** XX əsrin əvvəlləri türk xalqlarının ictimai-siyasi və mədəni həyatında dərin transformasiya mərhələsi kimi səciyyələnir. Birinci dünya müharibəsinin nəticələri, imperiyaların süqutu və yeni ideoloji-siyasi reallıqlar türk dünyasında milli özünüdərk, dil və mədəniyyət məsələlərinin aktuallaşmasına zəmin yaratmışdır. Məhz bu tarixi şəraitdə türkologiya elmi yalnız akademik fəaliyyət sahəsi kimi deyil, həm də milli-mədəni inkişafın mühüm intellektual dayağı kimi ön plana çıxmışdır.

1926-cı ildə Bakıda keçirilmiş I Türkoloji Qurultay həmin dövrün elmi, mədəni və siyasi çağırışlarının məntiqi nəticəsi olmuşdur. Qurultayın keçirildiyi Bakı şəhəri təsadüfi seçilməmişdir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakı türk-müsəlman dünyasının mühüm elmi-mədəni mərkəzlərindən birinə çevrilmiş, burada maarifçilik hərəkatı, milli mətbuat, teatr və dil islahatları intensiv şəkildə inkişaf etmişdir. Bu amillər Bakını türkologiyanın beynəlxalq miqyaslı müzakirəsi üçün əlverişli intellektual məkana çevirmişdir.

Qurultayın əsas məqsədi türk xalqlarının dil, əlifba, terminologiya və elmi metodologiya sahəsində mövcud problemlərini sistemli şəkildə müzakirə etmək, elmi əməkdaşlığı gücləndirmək və ortaq elmi yanaşmalar formalaşdırmaq olmuşdur. Qurultayda Sovet İttifaqının müxtəlif bölgələrindən, eləcə də xarici ölkələrdən dəvət olunmuş dilçilər, tarixçilər, etnoqraflar və şərqşünas alimlər iştirak etmiş, bu da tədbirin beynəlxalq elmi xarakterini təmin etmişdir.

I Bakı Türkoloji Qurultayının tarixi əhəmiyyəti, ilk növbədə, türkologiyanın institusionallaşması istiqamətində atılmış mühüm addım olması ilə müəyyən edilir. Qurultay çərçivəsində əlifba islahatı, türk dillərinin latın qrafikasına keçidi, terminoloji vahidlik və elmi-tədqiqat metodlarının unifikasiyası kimi məsələlər geniş müzakirə olunmuşdur. Bu müzakirələr türkologiyanın yalnız nəzəri deyil, həm də praktik inkişafına ciddi təsir göstərmişdir.

Bununla yanaşı, qurultay klassik türkologiya irsi ilə çağdaş elmi düşüncə arasında körpü rolunu oynamışdır. "Divani-lüğət it-türk"də müşahidə olunan dilə sistemli və müqayisəli yanaşma prinsipləri qurultay müzakirələrində yeni elmi terminologiya və metodoloji çərçivə daxilində davam etdirilmişdir.

**I Bakı Türkoloji Qurultayının çağdaş türkologiyaya təsiri.** I Bakı Türkoloji Qurultayı türkologiya elminin inkişafında yeni mərhələnin başlanğıcını qoyaraq onun çağdaş elmi sistem kimi formalaşmasına əsaslı təsir göstərmişdir. Qurultayda müzakirə olunan məsələlər yalnız dövrün aktual problemlərinə cavab verməklə kifayətlənməmiş, eyni zamanda sonrakı onilliklərdə türkologiyanın istiqamətlərini müəyyənləşdirən fundamental elmi prinsiplərin formalaşmasına zəmin yaratmışdır.

Qurultayın çağdaş türkologiyaya ən mühüm təsir sahələrindən biri elmi metodologiyanın yenilənməsi olmuşdur. Türk dillərinin müqayisəli-tarixi təhlili, dialektoloji tədqiqatlar və terminoloji sistemləşdirmə məsələləri qurultay müzakirələrinin mərkəzində dayanmış, bu yanaşmalar müasir türkologiyada qəbul edilən əsas metodoloji çərçivənin formalaşmasına təkan vermişdir. Beləliklə, türkologiya fərdi tədqiqat xarakterindən çıxaraq sistemli və kollektiv elmi fəaliyyət sahəsinə çevrilmişdir.

Qurultayın mühüm təsir istiqamətlərindən biri də əlifba və yazı mədəniyyəti məsələləri ilə bağlı olmuşdur. Türk dillərinin latın qrafikası əsasında vahid əlifbaya keçidi ideyası çağdaş türkologiyada dil planlaşdırılması, fonoloji uyğunluq və yazı standartlarının müəyyənləşdirilməsi sahəsində uzunmüddətli elmi müzakirələrin əsasını qoymuşdur. Bu proses yalnız texniki xarakter daşımamış, həm də türk xalqlarının mədəni inteqrasiyası və elmi kommunikasiya imkanlarının genişlənməsi baxımından mühüm rol oynamışdır.

XX əsrin əvvəllərində keçirilmiş I Bakı Türkoloji Qurultayı bu klassik elmi irsin çağdaş elmi düşüncə ilə sintez olunduğu mühüm tarixi mərhələ kimi çıxış etmişdir. Qurultay türkologiyanı fərdi tədqiqatlar səviyyəsindən çıxararaq sistemli, beynəlxalq elmi fəaliyyət müstəvisinə daşımış, dil, əlifba, terminologiya və metodologiya sahələrində vahid elmi yanaşmaların formalaşmasına təkan vermişdir. Görkəmli türkoloqlardan "*V.Bartold "Türk xalqları tarixinin müasir vəziyyəti və öyrədilməsinin yaxın vəzifələri", S.Oldenburq "Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları", A.Miller "Türk xalqlarının təsviri sənəti haqqında", F.Köprülüzadə "Türk xalqlarının ədəbi dillərinin inkişafı", A.Samoyloviç "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri"* [LƏYTƏ, 2006:12] mövzusunda məruzələri ilə bir daha türk xalqlarının dil, ədəbiyyat, mədəniyyət birliyinin tarixi kökə malik olduğunu əsaslandırmış, dövrün kommunist ideologiyasına bir daha türkün böyüklüyünü və qədim tarixə malik olduğunu elmi dəlillərlə sübut etmişlər.

"Divani-lüğət it-türk"dən başlanan klassik türkologiya ənənəsi I Bakı Türkoloji Qurultayı vasitəsilə çağdaş elmi sistemə çevrilmiş, tarixi varislik və

elmi davamlılıq prinsipləri əsasında inkişaf etmişdir. Bu baxımdan qurultay türkologiya elminin tarixində yalnız mühüm elmi hadisə deyil, həm də türk dünyasının elmi-mədəni inteqrasiyasını təmin edən strateji mərhələ kimi dəyərləndirilməlidir.

I Bakı Türkoloji Qurultayı çağdaş türkologiyada terminoloji vahidliyin formalaşmasına da ciddi təsir göstərmişdir. B.Çobanzadə ”Elmi terminologiya sistemi haqqında”, H.Zeynallı “Türk dillərində elmi terminologiya sistemi haqqında”, A.R.Zifeld-Simumyaqin “Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri məsələsi haqqında” məruzələri ilə qurultayda çıxış etmişlər [bax: LƏYTƏ, 2006:13]. Qurultay çərçivəsində dilçilik terminlərinin sistemləşdirilməsi və ümumtürk elmi leksikonunun yaradılması ideyası irəli sürülmüş, bu istiqamət müasir türkologiyada terminoloji dəqiqlik və elmi anlaşılma baxımından aktual olaraq qalmaqdadır. Bu yanaşma türkologiyanın digər humanitar elmlərlə inteqrasiyasını da asanlaşdırmışdır.

**Nəticə/Conclusion**

Qurultayın çağdaş türkologiyaya təsiri inkişaf müstəvisində də özünü göstərmişdir. Qurultaydan sonra türkologiya sahəsində elmi müəssisələrin, kafedraların və tədqiqat mərkəzlərinin yaradılması sürətlənmiş, beynəlxalq elmi əlaqələrin qurulması və elmi kadrların hazırlanması istiqamətində mühüm addımlar atılmışdır. Bu proses türkologiyanın qlobal elmi diskursda yer almasına şərait yaratmışdır. *“Bu böyük elmi-mədəni hadisənin tarixi dərsləri mədəniyyətlərin dialoquna, qarşılıqlı münasibətlərin və əməkdaşlığın daha da genişlənməsinə böyük imkanlar yaradır. Bu isə öz növbəsində dünya elminn daha da zənginləşdirilməsinə, beynəlxalq inteqrasiya proseslərinin hədəflərinə doğru yeni üfüqlərin açılması deməkdir*” [Həbibbəyli, 2016:5].

Nəhayət, I Bakı Türkoloji Qurultayı klassik türkologiya irsi ilə çağdaş elmi düşüncə arasında davamlılıq prinsipini möhkəmləndirmişdir. “Divani-lüğət-it-türk”dən başlayan elmi ənənə qurultay vasitəsilə yeni metodoloji və konseptual çərçivədə davam etdirilmiş, bu da türkologiyanın tarixi köklərə söykənən, lakin müasir elmi tələblərə cavab verən bir elm sahəsi kimi inkişafını təmin etmişdir. Bu mənada “Divani-lüğət-it-türk”dən başlayan klassik türkologiya elmi ilə I Bakı Türkoloji Qurultayı arasında mövcud olan ideya, metodoloji və elmi varislik əlaqələrinin araşdırılması, qurultayın çağdaş türkologiya elminin formalaşmasındakı rolu elmi-tarixi kontekstdə aktualdır. *“I Türkoloji Qurultay, sadəcə, geniş elmi müzakirə və mübadilə hadisəsi deyil, türklüyün elm, dil və mədəniyyət müstəvisində özünü dərk etməsinin təcəssümü, türk xalqlarının gələcək mənəvi birlik yolunu müəyyənləşdirmək cəhdi, mənəvi platforma idi. O dövrün siyasi məhdudiyyətləri və sosial təzyiqlərinə*

*baxmayaraq, Qurultay türk xalqlarının tarixində intellektual azadlığın, elmi əməkdaşlığın və milli birliyin bərqərar olduğu nadir məqam kimi yadda qaldı* [Əhmədov, 2025:14].

## ƏDƏBİYYAT/REFERENCES

1. Babayev, A. (2016). Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya. – Bakı: "Elm". – 335 s.

2. Əhmədov, N. (2025). Azərbaycan bu gün də türkoloji mərkəzdir // "Xalq" qəzeti, − 1 noyabr. −№ 234, − s.14.

3. Həbibbəyli, İ. (2016). Türkologiya elminin böyük təməli və müasir dövr // "Xalq" qəzeti, − 23 noyabr. − s.3

4. Latın əsaslı yeni türk əlifbası və və I Bakı Türkoloji Qurultayı. Biblioqrafiya / Tərtibçilər: K.Nərimanoğlu, Ə.Ağakişiyev, S.Abdullayeva. – Bakı, − 93 s.

5. Yoloğlu, G. (2016). I Ümumittifaq Türkoloji qurultay və türk dünyası // "Ədəbiyyat qəzeti. – 2 aprel. – s.30-31. http://www.anl.az/down-/meqale/edebiyyat/-2016/aprel/483685.jpg

**Məqalə tarixçəsi**

*Daxil olub* *19.01.2026*

*Qəbul edilib* *31.01.2026*

*Nəşrə tövsiyə edib* *Sevinc Əliyeva*

*filologiya elmləri doktoru, professor*